

**ABEL MƏHƏRRƏMOV,**
Bakı Dövlət Universitetinin rektoru

# HEYDƏR ƏLİYEVİN BAKI DÖVLƏT UNİVERSİTETİNƏ GÖSTƏRDİYİ QAYĞI HEÇ ZAMAN UNUDULMAYACAQ

Hər bir xalqın həyatında elə hadisələr baş verir ki, həmin hadisələrin işığında millətin şüuru formalaşır, onun elm və təhsilinin inkişafına geniş yol açılır, sözün həqiqi mənasında xalqın intibahı baş verir. Azərbaycan xalqının həyatında tarixi intibah dövrləri çox olmuşdur. Həmin intibahlar nəticəsində xalqımız dünyaya nəhəng şəxsiyyətlər - Nizami, Füzuli, Tusi kimi dahilər vermişdir. XX əsrdə Bakı Dövlət Universitetinin yaranması da Azərbaycan intibahının xalqımıza bəxş etdiyi ən böyük və əvəzsiz nemətlərdən biri idi. Bakı Dövlət Universiteti mövcud olduğu 80 ildən artıq bir dövrdə xalqımıza onun önündə gedəcək liderlər, ziyalılar bəxş etmişdir. Universitet dövlətimizin və dövlətçiliyimizin barometri olmuş, o dövrün reallığını əks etdirmiş və gələcək barədə ən doğru proqnozlar vermişdir. Xalqımız tarixin fəlakətlərindən və fırtınalarından ona görə çıxmağa müyəssər olmuşdur ki, doğma universitetində yetişdirdiyi ziyalıları ən ağır günlərdə sinələrini sipər etmiş, lazım gələndə həyatlarını qurban verməkdən belə çəkinməmişlər.

Bakı Dövlət Universitetinin yaradılması, haqsızlıq ucbatından uzun müddət müstəqilliyini və dövlətçiliyini itirməyə məcbur olmuş xalqımıza hava və su kimi lazım idi. Ona görə gərək idi ki, bu məbədgah milli ruhu qoruyub saxlaya bilsin, Azərbaycan xalqında özünüdərk meyllərini oyatsın, xalqın öz milli təhsil sistemini və mənəvi tərbiyə formalarını yaratmasına yardımçı olsun. Doğrudan da, tarixi gedişat göstərdi ki, Bakı Dövlət Universiteti təkcə milli və ictimai tərəqqimiz üçün lazım olmadı, həm də o mənəvi qida rolunu oynadı. Bu gün dünyanın ən məşhur siyasi xadimlərindən biri olan möhtərəm prezidentimiz Heydər Əliyev də Bakı Dövlət Universitetindən mənəvi qida almışdı. Azərbaycan xalqının milli siyasi mənəviyyat tarixinin 34 ilə qədər dövrü dünya şöhrətli siyasətçi, səriştəli rəhbər, əvəzsiz şəxsiyyət Heydər Əliyevin işıqlı adı və səmərəli fəaliyyəti ilə daha da zənginləşmişdir. Həmin dövrdə Bakı Dövlət Universiteti diqqətdən kənarda qala bilməzdi. Bütün şüurlu həyatını doğma xalqının, ana vətənin tərəqqisinə həsr etmiş Heydər Əliyev bu universitetin ən xırda problemlərinə də biganə qalmamışdı. Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam, - deyən Heydər Əliyevin sevgisi ilə universitet də inkişaf etmiş və özünün tarixi xidmətini xalq qarşısında iftixarla yerinə yetirmişdir. Azərbaycan

xalqının XX əsrdə yetişdirdiyi 2 nəhəng varlıq sanki bir-birinə bağlanmışdır. Bu varlıqlardan birincisi, xalqın siyasi qüdrətinin təcəssümçüsü, Azərbaycan ziyalılarının ağsaqqalı və himayəçisi, milli təhsil quruculuğumuzun nəhəng memarı Heydər Əliyev, ikincisi isə mənəvi böyüklüyümüzün simvolu, elmimizin, təhsilimizin, mədəniyyətimizin möhtəşəm məbədi olan Bakı Dövlət Universitetidir. Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Bakı Dövlət Universitetinə Heydər Əliyev tərəfindən hər zaman qayğı ilə yanaşılması bu doğmalıqdan irəli gəlirdi. Bütün bunlar universitetlə bağlı olan hər kəsə hədsiz qürur verir. Rəhbərimiz bu təhsil ocağına ona görə həssaslıqla yanaşır ki, Azərbaycanın keçmişini, onun mədəniyyətini, elm və iqtisadiyyatını, bütövlükdə müasir Azərbaycan cəmiyyətini bu elm məbədgahından ayrı təsəvvür etmir. Heydər Əliyev bilirdi ki, Azərbaycanın intibahı və inkişafı bu təhsil ocağının köməyi ilə baş verə bilər. Belə də oldu. Cəmiyyətin tərəqqisinin, elm, mədəniyyət, mənəviyyatının inkişafının ən qüdrətli vasitəsi rolunu oynayan təhsilə qayğının artırılması, bu işə dövlət siyasətinin üstün prinsipi kimi yanaşılması Heydər Əliyevin rəhbər və vətəndaş qayəsini ifadə edən önəmli cəhət idi. Bu amil Azərbaycanda 70-ci illərdən başlayaraq, Heydər Əliyev epoxasının mənəvi yüksəliş tarixinin inkaredilməz reallığıdır. Bunu danmaq, təkzib etmək mümkün deyildir. Çünki tarix baş vermiş hadisələrin və faktların yalana bürünməsinə heç vaxt imkan vermir. Bu tarixi gerçəyi necə danmaq olar ki, Heydər Əliyev Bakı Dövlət Universitetinin 50 illik yubileyində Sovet rejiminin tətbiq etdiyi bütün qadağaları aşaraq, Azərbaycanın ilk ali təhsil ocağında doğma Azərbaycan dilində çıxış etdi. Bu cəsarət o dövr üçün inqilaba bərabər bir hadisə idi. Sonralar da Bakı Dövlət Universiteti ilə bağlı hər hansı qərarın qəbul olunmasında Heydər Əliyev məhz bu cür inqilabi gedişlər etməyi bacardı. Adicə universitetin yubileylərinin keçirilməsində onun həssas, vətənpərvər və qayğıkeş vətəndaş mövqeyi üstün prinsip idi. Heydər Əliyev Azərbaycanın ilk ali təhsil müəssisəsinin yubileylərinin keçirilməsini yalnız sadəcə olaraq, bir vəzifə borcu kimi həyata keçirmirdi. O, 50 illik yubileydəki çıxışında göstərdiyi kimi, bu işə daha böyük məna verirdi. Bu yubileylərin keçirilməsini nəinki bu təhsil ocağının, hətta Özünün həyatının vacib məqamı sayırdı. Bakı Dövlət Universitetinin 75 illik yubiley şənliklərində çıxışında Heydər Əliyev iftixarla demişdir: Xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin 50 illik yubileyinin də, 60 illik yubileyinin də iştirakçısı olmuşam, indi universitetin 75 illik yubileyinin iştirakçısıyam. O, universitetin keçirdiyi bu yubiley tədbirlərini sadəcə bir təhsil müəssisəsinin tarixinin müəyyən mərhələsinin qeyd edilməsi kimi deyil, həm də universitetin yubileylərini çox böyük tarixi hadisə kimi qiymətləndirirdi. Heydər Əliyev bu yubileyləri Azərbaycan mədəniyyətinin, Azərbaycan xalqının inkişaf tarixində xüsusi rol oynayan əhəmiyyətli hadisə sayırdı.

1994-cü ildə universitetin 75 illik yubileyini hazırlamaq üçün təşkil edilmiş dövlət komissiyasına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrlik etməsi də təsadüfi deyildir. Bu, universitetin yubileyinin xüsusi əhəmiyyətini, ümumdövlət miqyasını göstərmək məqsədi daşıyan bir cəhət idi. Həm də bu Bakı Dövlət Universitetinə ölkə başçısının, möhtərəm Heydər Əliyevin böyük ehtiramını və məhəbbətini ifadə edən xüsusi amil idi.



2000-ci ildə Bakı Dövlət Universitetinin 80 illik yubileyinin keçirilməsi isə müstəqil Azərbaycan Respublikası üçün əsl ümumxalq bayramı idi. Dünyanın müxtəlif yerlərindən bu yubileyə gəlmiş tanınmış elm və təhsil işçiləri, ali məktəb rəhbərləri bir daha Heydər Əliyevin elmə və təhsilə necə böyük əhəmiyyət verdiyinin, qayğı ilə yanaşdığının şahidi oldular. Heydər Əliyevin yubileyə gəlmiş tanınmış qonaqları qəbul edərkən, söylədiyi fikirlər heç vaxt yaddan çıxmayacaq. Həmin tarixi görüşdə biz bir daha əmin olduq ki, təhsil işçilərinin və elm adamlarının Heydər Əliyev kimi əvəzsiz arxası və dayağı vardır. Onun rəhbərliyi ilə hal-hazırda təhsilin, mədəniyyətin, elmin inkişafı üçün çox gözəl şərait yaradılmışdır. Belə bir şəraitdə yaradıcı olmamaq, xalqına, millətinə xidmət etməmək, əzmkar və fədakarlıq göstərməmək qeyri mümkündür.

Son illər təhsil işçilərinə və təhsil ocaqlarına da Heydər Əliyev tərəfindən necə böyük diqqət göstərilməsindən də bəhs etmək istəyirəm. Onlar çox-çoxdur. Qısaca deyim ki, Heydər Əliyevin qayıdışından sonra müəllimlərimizin əmək haqqı bir neçə dəfə artırılmış, iş şəraitləri yaxşılaşdırılmış, əsl qayğı ilə əhatə olunmuşlar. Universitetimizdə çalışan 69 nəfər əməkdaşa 80 illik yubiley günlərində fəxri adların verilməsi, onların orden və medallarla təltif olunması bu qayğının ən bariz təzahürü idi. Biz bu gün Heydər Əliyevin 70-80-ci illərdə BDU-ya necə böyük qayğı ilə yanaşdığını minnətdarlıq hissi ilə xatırlayırıq. Bütün bunlara görə Universitet kollektivi Heydər Əliyevə minnətdardır.

Heydər Əliyev hələ 70-ci illərdə 1969-cu ildən başlayaraq Azərbaycanın gələcək yetkin insanını yetişdirmək və ona milli özünüdərk ruhu aşılamaq üçün əlindən gələn hər şeyi edirdi. Hər il yüzlərlə gəncin SSRİ-nin müxtəlif şəhərlərinə, qabaqcıl elm və təhsil mərkəzlərinə oxumağa göndərilməsi Azərbaycanın gələcək tərəqqisi üçün Heydər Əliyevin xüsusi qayğı ilə yanaşdığını göstərirdi. 1969-cu ildə SSRİ-nin müxtəlif şəhərlərində oxumaq istəyənlər üçün yalnız 47 yer ayrıldığı halda, 80-ci illərin əvvəllərində bu mərkəzlərdə oxuyanların sayı 1000 nəfəri keçmişdi. Heydər Əliyevin qayğı və diqqəti sayəsində 70-ci illərdə 10 minədək gənc azərbaycanlı respublikamızdan kənarda təhsil almağa göndərilmişdir. Bu gün biz fəxr edirik ki, həmin tələbələrin bir çoxu Bakı Dövlət Universitetindən pərvazlanmışlar. Heydər Əliyev o vaxt ölkənin ən qabaqcıl ali təhsil mərkəzlərinə tələbə göndərməklə respublikadan kənarda bir universitet yaratmışdı. Həmin universitetin məzunları SSRİ-nin müxtəlif yerlərində təhsil alıb, respublikamıza dönən yüksək ixtisaslı mütəxəssislər, cəmiyyətin aparıcı təbəqəsinə çevrilib, elə indinin özündə də dövlət strukturlarında və elmin müxtəlif sahələrində öz layiqli yerlərini tutur və müstəqil Azərbaycan dövlətimizin çiçəklənməsinə öz töhfələrini verirlər. Heydər Əliyev bu mütəxəssislərin gələcəkdə Azərbaycana necə böyük fayda verəcəyini əvvəlcədən müdrikcəsinə görmüşdür. Heydər Əliyevə doğma olan Bakı Dövlət Universiteti də o zaman onun himayəsini hiss etmişdir. Azərbaycan rəhbərinin qayğısı və diqqətilə həmin 70-ci

illərdə universitetimiz ən qabaqcıl təhsil müəssisələrindən birinə çevrilmişdir. Respublikanın ən əhəmiyyətli tədbirləri məhz Bakı Dövlət Universitetində keçirilirdi. Onun müdrikcəsinə Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir, - deyə verdiyi qiymət və bu milli sərvətə millətin sahib olması üçün həmişə diqqət göstərməsi Azərbaycan təhsilinin bayraqdarını - Bakı Dövlət Universitetini həmişə öncül yerdə olmağa sövq etmişdir. Universitetdə çalışan hər bir müəllim də, hər bir tələbə də, bu qiymətə layiq olmağa çalışmış və doğma universitetin inkişafı üçün hər kəs öz xidmətini göstərmiş və göstərir.

Universitetimiz yarandığı gündən bəri burada zaman-zaman demokratik ideyaların intişar tapması, xalqın milli özünüdərk prosesinin formalaşması səbəbsiz deyildi. Bunun üçün vaxtilə Heydər Əliyev möhkəm milli təməl qoymuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, universitetin 50 illik yubileyində Heydər Əliyevin Azərbaycan dilində çıxış etməsi, milli intihabın, milli şüurun oyanması üçün bir təkan idi. Həmin təkan nəticəsində bütün respublika silkələndi, bir çoxları bundan qorxuya da düşdülər. Amma xalqının dəstəyini alan Heydər Əliyev heç kəsdən çəkinmədən cəsarətlə millətin oyanması üçün əlindən gələn hər şeyi etdi. Bu gün Azərbaycan öz müstəqil dövlətini qurmağı bacarmışdırsa, demək, vaxtilə Heydər Əliyev kimi şəxsiyyətin çəkdiyi əmək hədər getməmişdir. Bu gün biz həmin əməyin və fədakarlığın, məqsədyönlü fəaliyyətin bəhrəsini görürük.

1993-cü ildə Heydər Əliyev yenidən Azərbaycana hakimiyyətə qayıdarkən, ölkəni fəlakət və xaosdan, bir neçə yerə parçalanmaqdan, ölüm və qandan xilas edərkən belə Bakı Dövlət Universitetini yaddan çıxarmadı. O, universitetə gələrək, bu böyük təhsil ocağına sanki yenidən həyat verdi. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışına qədər Bakı Dövlət Universitetinin vəziyyəti hamımızın yadındadır. Bu təhsil ocağında təhsilin səviyyəsi aşağı düşmüş, müəllim və tələbələr arasında ruh düşkünlüyü yaranmış, kollektivdə gələcəyə inamsızlıq əhval-ruhiyyəsi vardı. Elmlər Akademiyası, respublika universitet və təhsil ocaqları bərbad vəziyyətdə və dağılmaq təhlükəsindəydilər. Alimlərin bir çoxu Azərbaycanı tərk edərək bir parça çörək dalınca başqa ölkələrə üz tutmuş, bir çoxları isə müəllimliyin və elmin daşını birdəfəlik atmışdılar. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı sanki bütün elm adamlarının, o cümlədən Bakı Dövlət Universiteti kollektivinin qədd-qamətini düzəltdi. Universitetin kollektivi respublika ziyalıları ilə birgə Azərbaycanı işıqlı gələcəyə aparan bələlardan, xaosdan xilas edən bir rəhbərə dayaq olmaq üçün ayağa qalxdı və özünün ziyalı sözünü deməyə başladı. Hələ Heydər Əliyev Naxçıvanda olarkən, Azərbaycan ziyalılarının nəzəri bu diyara dikilərkən, Bakı Dövlət Universitetinin müəllimləri xalqın xilasının Heydər Əliyevin Azərbaycana yenidən rəhbərliyə dönməsində görərkən nə qədər haqlı olduqlarını bu günlər bir daha təsdiqləyir. Böyük bir hissəsi BDU müəllimlərindən ibarət olan 91 nəfər ziyalının Heydər Əliyevə müraciətini xatırlatmaq istərdim. Həmin müraciət cəmiyyətdə əlamətdar hadisəyə çevrildi, Azərbaycan Respublikasını siyasi həyatında dönüş nöqtələrindən biri oldu. Heydər Əliyev həmin ziyalıların səsinə səs verdi və öz doğma xalqını düşdüyü vəziyyətdən çıxartmaqda, Azərbaycanı fəlakətlərdən xilas etməkdə müdriklik göstərdi. Heydər Əliyev "91-lər"ə cavab məktubunda vəziyyətdən çıxış yollarını göstərir və Azərbaycanın xilası yolunda əlindən gələni əsirgəməyəcəyini bildirirdi. Azərbaycanın düşdüyü vəziyyət o zaman yeni bir siyasi təşkilatın - Yeni Azərbaycan Partiyasının yaranmasına səbəb oldu və 1992-ci il noyabrın 20-də onun təməli qoyuldu. 1993-cü ilin iyununda Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yaranarkən, xalqımızın imdadına məhz Heydər Əliyev çatdı. Bu, Azərbaycan xalqının xoşbəxtliyi idi. Bu 1993-cü ildən başlayaraq Bakı Dövlət Universitetinin xoşbəxliyinin başlanğıc dövrü idi.

Təsadüfi deyildir ki, Bakı Dövlət Universitetinin Böyük Elmi Şurası universitet elminin və təhsilinin inkişafına göstərdiyi qayğıya, universitetin adını və şöhrətini yüksəklərə qaldırdığına, Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərinə görə, Heydər Əlirza oğlu Əliyevə BDU-nun Fəxri Doktoru adı verilməsi barədə qərar qəbul etdi. BDU-nun 80 illik yubileyinə gəlmiş qonaqları qəbul edən Heydər Əliyev cənablarına Fəxri Doktor diplomunu təqdim etmək şərəfinə nail olduğuma görə özümü xoşbəxt sayıram.

Hər bir universitetin qarşısına qoyduğu məqsəd vardır. Əsas məqsəd isə gələcəyin vətəndaşını, yüksək səviyyəli mütəxəssisini yetişdirməkdən ibarətdir. Xalqımızın sabahı, savadlı kadrlar, layiqli vətəndaşlar hazırlamaq üçün prezidentimiz Heydər Əliyevin və gələcək liderimiz İlham Əliyevin tövsiyələri əsasında tədris və təhsilimizi günü-gündən inkişaf etdirməyə borcluyuq. BDU kollektivi ilə İlham Əliyevin görüşü heç vaxt yadımızdan çıxmayacaq. Onun dəyərli tövsiyələri fəaliyyətimizdə bu gün də xüsusi yer tutur. Biz prezidentimiz Heydər Əliyevin qarşımıza qoyduğu tələbləri və hörmətli İlham müəllimin tövsiyələrini həyata keçirmək məqsədilə sivil dünyanın ən qabaqcıl yeniliklərinə yiyələnməli, onu tədrisimizə və elmimizə tətbiq etməliyik. Bunlardan biri də BDU-nun başdan-başa kompüterləşməsidir ki, buna artıq nail olmuşuq. İndi BDU-da 300-ə yaxın nöqtədən internetə çıxış vardır. Xarici dilləri daha yaxşı öyrənmək üçün müasir tələblərə cavab verən linqafon kabinələri quraşdırılmışdır. Fakültə və kafedralar elm və texnikanın ən müasir yeniliklərini əldə etməyə şərait yaradan müasir avadanlıqlarla təchiz olunmuş və olunurlar. Auditoriyaların bir çoxu mərkəzi monitor sisteminə qoşularaq, bütün fakültələrdə tədris proseslərinin avtomatlaşdırılmasına başlanmışdır. BDU-nun kitabxanasının müasir standartlara uyğun yenidən qurulması, bütün kitab fondunun kompüter sisteminə keçirilməsi və internetə bağlanması sivil dünya ilə əlaqənin ən bariz nümunəsidir. Bu bizə Azərbaycanın mənəvi sərvətləri ilə dünyanı xəbərdar etməyə, eyni zamanda dünyada baş verən yeniliklərdən anındaca xəbər tutmağa imkan verəcək.

BDU-da yeni müasir dünya standartlarına cavab verən idman kompleksinin yaradılması və onun tələbələrin ixtiyarına verilməsi də təhsil ocağımızın həyatında əlamətdar hadisələrdən biridir. İndi burada yeni üzgüçülük hovuzunun tikintisi ilə bağlı işlər başa çatır. Eyni zamanda biz 1990-cı ildən yarımçıq qalmış tədris korpusunun inşasını da davam etdiririk. Bütün bunlar dövlətimizin,

şəxsən prezidentimiz Heydər Əliyevin təhsilimiz və elmimizə göstərdiyi diqqətin bariz nəticəsidir.

Dövlət başçımızın apardığı uzaqgörən xarici siyasəti nəticəsində BDU-nun beynəlxalq əlaqələri genişlənmişdir. Təhsil ocağımız Avrasiya Ölkələri Universitetləri, Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri, Xəzəryanı Dövlətlər Universitetləri Assosiasiyasının üzvüdür və bu qurumların işində səmərəli fəaliyyət göstərir. Ötən ilin sentyabrında Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyasının İİ Konqresinin Bakıda, BDU-nun bazasında keçirilməsi respublikamıza, dövlət başçımız cənab Heydər Əliyevə böyük beynəlxalq rəğbət və ehtiramın ifadəsi idi. Həmin beynəlxalq tədbirdə möhtərəm Heydər Əliyev Konqresin fəxri sədri seçildi və konqres günlərində 11 ölkədən gəlmiş 100-ə qədər universitet rektoru, ayrı-ayrı ölkələrin təhsil nazirliklərinin məsul işçiləri, mütəxəssislər dönə-dönə qeyd etdilər ki, Azərbaycanda təhsil və elmə dövlət səviyyəsində qayğı vardır və bu ölkə rəhbərinin xalqa xidmətinin əyani nümunəsidir.

Ölkə başçısı təhsil sahəsində islahatların aparılmasında aydın strateji xətt müəyyənləşdirmişdir. Həmin xəttə uyğun olaraq, Bakı Dövlət Universiteti beynəlxalq proqram və qrantların hazırlanmasında da fəal iştirak edir, dünya təhsilinə və elminə inteqrasiyanı özünün əsas işlərindən biri sayır. Təsadüfi deyil ki, bizim bu birgə proqram və layihələrdə, qrantlarda iştirakımızın miqyası artıq milyon dollarlarla ölçülür. İndi biz Rusiyanın, Türkiyənin, ABŞ-ın, Almaniyanın, İtaliyanın, Avstriyanın, Yaponiyanın, Fransanın, İngiltərənin və s. ölkələrin ayrı-ayrı tədris və elm mərkəzləri ilə sıx əməkdaşlıq edirik.

Bugün BDU informasiyalı cəmiyyətin əsaslı atributlarından sayılan kompüter texnologiyasının, internetin zəngin məlumat bazasını auditoriyalara çatdıran bir məkana çevrilib, eyni zamanda universitetin ayrı-ayrı fakültələrində fəaliyyət göstərən mərkəzlər vasitəsilə bir anın içində dünyanın hər yeri ilə əlaqə saxlamaq imkanına malikdir. Artıq neçə ildir ki, Universitetdə Amerikanşünaslıq mərkəzi və Türk dünyası ilə inteqrasiyanı həyata keçirən Türk Odası fəaliyyət göstərir, NATO-nun İnformasiya Mərkəzi, İslam Svilizasiya Mərkəzi və başqa elmi, mədəni, texnoloji mərkəzləri çox geniş spektri əhatə edir.

Bakı Dövlət Universitetində fəaliyyət göstərən Heydər Əliyev məktəbi ideoloji mərkəz kimi ölkə prezidentinin apardığı uğurlu daxili və xarici siyasəti daim diqqət mərkəzində saxlayır. Aparılan islahatlar müzakirə olunur və ölkə prezidentinin uğurlu siyasətinin strategiyası məşğələ iştirakçıları, ictimaiyyət arasında geniş təbliğ olunur. Heydər Əliyev məktəbinə dəvət olunan ayrı-ayrı vəzifəli şəxslərin geniş məruzələri dinlənilir.

Bu gün Azərbaycan Respublikasının Milli Məclisində BDU-dan 15 nəfər deputat var. 2001-ci ildə Azərbaycan MEA-ya sekçilərdə BDU alimlərindən 15 nəfərin bu elm məbədinə həqiqi və müxbir üzv seçilməsi həm ictimai-siyasi həyatda, həm də elmi mühitdə universitetimiz fəal aparıcı rol oynadığını göstərir. Biz fəxr edirik ki, respublikada elmi potensialın 25 faizi BDU-da cəmləşmişdir və onlara dövlət səviyyəsində qayğı göstərilir.



Elmin, təhsilin və ictimai proseslərin mərkəzinə çevrilmiş Bakı Dövlət Universitetində yeni dövrün diqtə etdiyi yeniliklərə, müasirliyə son dərəcə diqqətlə yanaşılır. Burada dünyanın müxtəlif ölkələrindən gəlmiş görkəmli alimlər mühazirə oxuyur, dərs deyir, xarici ölkələrin tələbələri təhsil alırlar. Universitetin elmi-texniki bazasını möhkəmləndirmək, tədrisin keyfiyyətini dünya standartları səviyyəsinə çatdırmaq üçün burada köklü dəyişikliklər aparılır. Məzmun dəyişiklikləri ilə yanaşı son illərdə Bakı Dövlət Universitetinin xarici görünüşü də tanınmaz dərəcədə dəyişmişdir. Universitet bu gün Azərbaycan dövlətçiliyinin, ölkə prezidenti cənab Heydər Əliyevin siyasi kursunun dəstəkçisi olmaqla yanaşı, Azərbaycan cəmiyyətinin ictimai-siyasi həyatının daha da sağlamlaşmasına da önəmli təsirini göstərir. Heç şübhəsiz qarşıdan gələn prezident seçkilərində Bakı Dövlət Universitetinin professor-müəllim heyəti əməkdaşları və bütün tələbələri son dərəcə fəal iştirak edəcəklər. Biz xalqımızın lideri, möhtərəm prezidentimiz Heydər Əliyevin yenidən ölkəmizə prezident seçilməsi üçün artıq təbliğat kampaniyasını başlamışıq. Prezidentimizin əsas sosial dayaqlarından biri olan Bakı Dövlət Universiteti şübhə yoxdur ki, bu seçkilərdə qələbəni sözsüz təmin etməyə nail olan öncül kollektivlərdən biri olacaqdır. Bakı Dövlət Universitetinin ən böyük himayədarı, onun qayğıkeşi möhtərəm cənab Heydər Əliyev yenidən Azərbaycanın prezidenti seçiləcəkdir. Prezidentimizin anadan olmasının 80 illik yubileyi Bakı Dövlət Universitetinin kollektivi üçün əsl bayramdır. Bu bayramın ən zirvə nöqtəsi isə qədirbilən xalqımız tərəfindən Heydər Əliyevin yenidən prezident seçilməsi olacaqdır. Bakı Dövlət Universitetinin çox minlik kollektivi bir nəfər kimi bu yolda əlindən gələn hər şeyi edir və edəcəkdir.

Bu gün dünyada qloballaşmış cəmiyyət formalaşdırmaq tendensiyası vardır. Buna isə elmin, təhsilin gələcək uğurları və insanların təfəkkürünün yeniləşməsi hesabına nail olmaq olar. Cənab prezidentimizin apardığı daxili və xarici siyasət imkan verir ki, biz sivil dünyanın əsas atributlarından biri olan bu novatorluğu Azərbaycan cəmiyyətinə gətirə bilək. Bu gün yetişən və gələcəkdə şüuru və təfəkkürü sağlam olan, müasir düşüncə tərzinə malik yetkin, savadlı insanlar həmin cəmiyyəti formalaşdıracaq və onun inkişafını təmin edəcəklər. Cənab Heydər Əliyev apardığı siyasətlə Azərbaycan xalqının gələcək inkişafının bax bu təməlini qoymuşdur.

Azərbaycan bu gün öz tarixinin müasir, daha şərəfli və əzəmətli dövrünə daxil olmuşdur. Yeni minillikdə müstəqil Azərbaycan Respublikasının təhsilinin və elminin strategiyasını cənab Heydər Əliyev müəyyən etmişdir. Şübhəsiz ki, müstəqilliyimiz əbədi olduğu kimi, təhsilimiz, elmimiz də əbədi olacaqdır. Bu gün Azərbaycan xalqının, onun təhsilinin və elminin Heydər Əliyev kimi böyük bir dayağı vardır. Nəhəng siyasətçi, ictimai-siyasi xadim, dövlətimizin rəhbəri Heydər Əliyevin açdığı yolla isə Azərbaycan xalqı əbədiyyətə doğru daim inamla irəliləyir və irəliləyəcəkdir.